

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Nəxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 8 (21.160)

14 yanvar 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


# NAXÇIVAN: inkişaf edən qədim diyar

*İnsan Vətən sevgisinə köklənəndə dünyanın bütün gücü onun qoluna toplanır. Qəlbi Vətən sevgisi ilə döyünən, ömrünü ancaq xalqına və Vətəninə xidmətə həsr edən belə insanlar öz talelərini deyil, xalqın və millətin taleyini yaşayırlar. Əslində isə bu taleyi yaradırlar: xalqa, Vətənə və dövlətçiliyə bağlılıqları ilə.*

Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"İnsanların hər biri gərək əsl vətəndaş olsun, vətənpərvər vətəndaş olsun, milli qürur hissi ilə yaşayan vətəndaş olsun. Onda bu vətəndaş dövlətçiliyi inkişaf etdirən vətəndaş olacaqdır".*** 1995-ci ildən başlayaraq Naxçıvan Muxtar Respublikasının keçdiyi inkişaf yolunun əsasında da ƏSL VƏTƏNDAŞIN xalqına və dövlətinə xidmət amalı dayanır. 1960-cı il yanvarın 14-də sadə bir zəhmətkeş ailəsində dünyaya göz açan Vasif Talıbov Heydər Əliyev məktəbində püxtələşərək böyük dövlətçilik yolu keçmişdir. Son 20 ildə Ali Məclisin Sədri tərəfindən bu dövlətçilik yolunun uğurla davam etdirilməsi nəticəsində muxtar respublikada bütün sahələrdə inkişaf və tərəqqiyə nail olunmuş, ümummilli liderin siyasi kursuna münasibətdə sözlə əməlin, ideallara sədaqətlə konkret işin vəhdəti yaradılmışdır. Bu gün muxtar respublikanın böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, hər bir kənd, qəsəbə və şəhəri yeniləşmə prosesinin təsiri altındadır. Naxçıvanın coğrafi şəraitinin, mürəkkəb relyef quruluşunun çətinliklərinə baxmayaraq, bu qədim diyarda hər gün bir yeniliyə imza atılır, yeni-yeni layihələr reallaşdırılır. Blokada çətinlikləri unudulmuş, çörək növbəsində gözləmək, qışda soyuqda qalmaq, iş dalınca xaricə üz tutmaq insanların düşüncəsindən silinmiş, həyat normasına çevrilmiş inkişaf isə daha xoşbəxt gələcəyin carçısı olmuşdur.

Muxtar respublikanın keçdiyi inkişaf yolu ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin",*** – deyən ulu öndər Heydər Əliyevin ideyalarına dərin sədaqətin təcəssümüdür. Ulu öndərin 1990-1993-cü illərdə Naxçıvanda müstəqil Azərbaycan naminə həyata keçirdiyi işlər və əsasını qoyduğu sosial-iqtisadi islahatlar bugünkü davamlı inkişafın təməl daşlarıdır. Növbəti mərhələ isə bu təməli möhkəmləndirmək və insanların firavan həyatını təmin etmək kimi çətin bir missiyadan ibarət idi. Bu missiyanı yerinə yetirmək – taleyüklü proqramlar icra etmək siyasi iradə və cəsarət, torpağa bağlılıq və Vətən sevgisi nəticəsində mümkün olmuşdur.

1995-ci ildən ötən hər il Naxçıvan tarixinə həm də mümkün olmayanın mümkün edildiyi tarix kimi yazılmışdır. Blokada şəraitində böyük iqtisadi uğurlara nail olmaq, ərzaq və enerji təhlükəsizliyini təmin etmək əsl möcüzədir: "Naxçıvan möcüzəsi". Müasir Azərbaycanın siyasi leksikonuna daxil olan bu ifadə muxtar respublikada əldə olunan hərtərəfli və dinamik inkişafı tam dolğunluğu ilə əks etdirir. Ötən dövrdə muxtar respublikada bütün makroiqtisadi göstəricilərin artım tempi təmin edilmiş, 2014-cü ildə Ümumi Daxili Məhsulun həcmi 1995-ci ilə nisbətən 55 dəfə, sənaye məhsulunun həcmi 97 dəfə, əsas kapitala yönəldilən investisiyalar 303 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 9 dəfədən, informasiya və rabitə xidmətlərinin həcmi 109 dəfədən çox, ixracın həcmi 211 dəfə, əhalinin gəlirləri isə 56 dəfə artmışdır.

Naxçıvanın inkişafının əsas səbəblərindən biri də qəbul edilən dövlət proqramlarının uğurlu icrasıdır."2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram", "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2014-2018-ci illəri əhatə edən 3-cü Dövlət Proqramı muxtar respublikanın kompleks inkişafında mühüm əhəmiyyətə malik olan dövlət sənədləridir.



Adları sadalanan dövlət proqramlarının uğurlu icrası Naxçıvanda sənayenin və aqrar sahənin kompleks inkişafına səbəb olmuşdur. Əgər 1995-ci ildə muxtar respublikada 56 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, ötən illərdə onların sayı artaraq 439-a çatdırılmışdır. Bu gün muxtar respublikada gündəlik istehsal gücü min ton olan onlarla iri sənaye müəssisəsi fəaliyyət göstərir. Sənayenin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi muxtar respublikada sənaye parklarının da yaradılmasına başlanılmışdır. Digər bir tərəfdən aqrar islahatların həyata keçirilməsi bu sahədə də məhsul istehsalını xeyli artırmışdır. Naxçıvanda torpaq mülkiyyətçiləri və fermerlər üçün yaradılan şərait, qurulan müasir suvarma şəbəkələri kənd təsərrüfatının kompleks inkişafını təmin etmişdir. Nəticədə, bir zamanlar ərzaq tələbatını yalnız idxal hesabına ödəyən Naxçıvanda bu gün həm ərzaq, həm də qeyri-ərzaq məhsullarının ixrac potensialı formalaşmışdır. Hazırda muxtar respublikada 352 növdə məhsul istehsal edilir, 107-si ərzaq və 229-u qeyri-ərzaq olmaqla, 336 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Bu gün Naxçıvanda sənayenin və aqrar sahənin inkişafı yeni sahibkarlar sinfinin yaranmasına səbəb olmuşdur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublika üzrə Ümumi Daxili Məhsulun həcmində özəl bölmənin xüsusi çəkisi hər il daha da artır. Təkcə ötən bir il ərzində muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün 33 milyon manatdan artıq kredit verilmiş, 47 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. Artıq naxçıvanlı sahibkarlar ölkədə və dünyada kiçik biznes və xidmət sahələri ilə deyil, yerli xammal əsasında işləyən holdinq və şirkətlərlə təmsil olunurlar.

Sahibkarlığın inkişafı həm də yeni iş yerlərinin açılmasına stimul vermişdir. Bir vaxtlar muxtar respublikanı tərk edib iş dalınca qonşu ölkələrə üz tutan və əmək normalarına uyğun olmayan şəraitdə çalışan naxçıvanlılar indi öz kəndində, şəhərində, qəsəbəsində, elin dili ilə desək, öz qapısının ağzında sığortalı işlə təmin olunub və yüksək əməkhaqqı alırlar. Təkcə 2014-cü ildə muxtar respublikada 4 minə yaxın yeni iş yerinin açılması bunun daha bir parlaq ifadəsidir. Bu gün həm də Naxçıvana xarici ölkələrdən işçi qüvvəsi gəlir, bu qədim diyara investisiyalar qoyulur, Nuhun diyarı öz inkişafı ilə tarixinin intibah dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanın inkişafını yüksək qiymətləndirərək demişdir: ***"Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına layaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir".***

Naxçıvanın tikinti xəritəsi xeyli genişlənmişdir. Bu qədim diyarda hər il qədim və müasir memarlıq məktəbinin elementlərini özündə yaşadan yüzlərlə yeni inzibati binalar, sosial obyektlər, xidmət sahələri tikilərək istifadəyə verilir. Ən ucqar dağ kəndindən tutmuş paytaxt Naxçıvana qədər bütün yaşayış məntəqələrində yaradılan şərait, ilk növbədə, əhalinin rahatlığına xidmət edir. Xatırlatmaq yerinə düşər ki, təkcə 2014-cü ildə muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində 296 obyekt istifadəyə verilmişdir. Muxtar respublikada quruculuq işləri yeni yaşayış binalarının və fərdi mənzillərin tikilməsi ilə də xarakterizə olunur. Bu gün ailə həyatı quran gənclər mənzil təminatı sahəsindəki çətinliklərlə qarşılaşmırlar. Yeni yaşayış komplekslərinin tikilərək güzəştli şərtlərlə gənc ailələrə verilməsi, sosial qayğıya ehtiyacı olanların fərdi mənzillərlə təmin olunması deyilənləri bir daha təsdiq edir. Əhalinin rifahının yaxşılaşmasının nəticəsidir ki, ötən il muxtar respublikada şəxsi vəsait hesabına, ümumilikdə, 365 min kvadratmetrdən artıq yaşayış sahəsi tikilmişdir. Bu da 1995-ci ildəki müvafiq göstərici ilə müqayisədə 22 dəfə çoxdur.

Söhbət inkişafdan düşmüşkən, muxtar respublikada məskunlaşmanın artımı ilə bağlı bəzi məsələlərə toxunmaq yerinə düşər. Məskunlaşma o yerdə mümkün olur ki, orada insanların rahat yaşayışı və məşğuliyyəti təmin edilsin. Muxtar respublikanın bütün yaşayış məntəqələrində, xüsusilə ən ucqar dağ kəndlərində müasir infrastruktur yaradılmışdır. Evində fasiləsiz mavi yanacaq şölələnən, işığı daim yanan, telefon, internet xidmətindən istifadə edən, rahat yoldan və səhiyyə xidmətindən yararlanan, uşağı müasir məktəbdə təhsil alan hər bir sakin doğma yurd-yuvasına daha sıx tellərlə bağlanmışdır. Bu gün kənd adamları dövlətin güzəştli kreditlərindən bəhrələnir, ucuz qiymətə kənd təsərrüfatı texnikaları alır, öz torpağını əkib-becərir, gün-güzəranını yaxşılaşdırırlar. Lakin iş bununla bitmir. Zəhmətinin bəhrəsi olaraq əldə etdiyi bol məhsulu öz kəndindəki ticarət obyektlərində, rayon mərkəzlərində və şəhərlərdəki müasir bazar komplekslərində rüsum ödəmədən rahat şəkildə satır. Beləliklə, bir tərəfdən kəndlinin rifahı getdikcə yaxşılaşır, digər tərəfdən də o, ərzaq təhlükəsizliyinin təmin olunmasında öz payının olduğunu hiss edərək daha böyük şövqlə çalışır. Bax bütün bu amillər də muxtar respublikanın yaşayış məntəqələrində, əlalxüsus da kəndlərdə məskunlaşmanın ilbeil artmasına səbəb olur.

İqtisadi islahatlar o zaman səmərəli olur ki, o, ciddi sosial proqramlarla tamamlansın. Bu gün muxtar respublika iqtisadiyyatında köklü dəyişikliklərə nail olunması makroiqtisadi sabitliyi təmin etməklə bərabər, sosial sahənin inkişafı üçün də möhkəm zəmin yaratmışdır. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sağlamlığının qorunması, aztəminatlı təbəqəyə kömək göstərilməsi muxtar respublikada sosial siyasətin başlıca istiqamətlərindəndir. Eyni zamanda bu, insan amilinə də yüksək qayğı və həssaslıq nümunəsidir.

Hər bir cəmiyyətin ən qiymətli sərvəti onun sağlam üzvləridir. Naxçıvanda həyata keçirilən səhiyyə islahatlarının mərkəzində də insan amili dayanır. Müasir səhiyyə infrastrukturunun yaradılması, insanlar arasında səhiyyə maarifi işinin gücləndirilməsi, əhalinin bütün təbəqəsinin lazımi tibbi xidmətlə təmin olunması muxtar respublikada xəstəliklərin səviyyəsinin azalmasına, gələcəyimiz olan gənc nəslin sağlam vətəndaş kimi böyüməsinə səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Mən istəyirəm ki, gənclərimiz vətənpərvər, peşəkar, bilikli, savadlı olsunlar, Vətən sevgisi ilə böyüsünlər".*** Vətən sevgisinin əsası isə məktəbdə qoyulur. Bu səbəbdən də muxtar respublikada məktəb işi həyata keçirilən təhsil islahatlarının əsasını təşkil edir. ***"Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir",*** – deyən Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikada 200-dən artıq məktəb binası tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" və "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncamları muxtar respublikada elektron təhsilin inkişafına və bütün kateqoriyadan olan vətəndaşların təhsil almasına şərait yaratmışdır.

Ardı 2-ci səhifədə

Muxtar respublikada gənclər siyasəti sahəsində həyata keçirilən tədbirlər yalnız müasir təhsil infrastrukturunun yaradılması ilə məhdudlaşmır. Son illər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün güclü sosial-iqtisadi, təşkilati təminatların yaradılması, istedadlı gənclərin üzə çıxarılması, dövlət idarəçiliyində və digər sahələrdə irəli çəkilməsi, idman və gənclər siyasətinin yeni mərhələyə yüksəldilməsi onların ictimai həyatın bütün sahələrində aktivliyinə səbəb olmuşdur. Fiziki inkişaf və asudə vaxtın səmərəli təşkili sağlam həyat tərzi olmaqla yanaşı, həm də gənclərin mənən formalaşması, pis vərdişlərdən uzaq olması deməkdir. Bu gün gənc nəslin idmana cəlbi, idmanın kütləviliyinin təmin olunması sahəsində kompleks işlər görülür, Naxçıvanda beynəlxalq idman yarışları keçirilir, bu qədim diyarın adı dünya çempionatlarında, beynəlxalq arenalarda səslənir, yeni idmançılar nəsli yetişir.

İnkişaf strategiyası milli amillərə, tarixi kökə bağlılıq ruhunda aparılarsa, o, davamlı və çoxşaxəli olar. Muxtar respublikada əldə olunan əsas nailiyyətlərdən biri də Naxçıvan tarixinin ətraflı tədqiq olunması, milli-mənəvi dəyərlərimizin zənginləşdirilərək qorunub yaşadılmasıdır. Muxtar respublikanın qədim tarixinin elmi şəkildə öyrənilməsi, bu məqsədlə beynəlxalq simpozium və konfransların keçirilməsi, dünyanın diqqətinin Naxçıvana yönəldilməsi ciddi nəticələrin qazanılmasına səbəb olmuş, Naxçıvan tarixi ilə bağlı yüzlərlə elmi əsərlər yazılmış, "Naxçıvan Ensiklopediyası", "Naxçıvan tarixi" çoxcildlikləri nəşr olunmuş, Naxçıvanşünaslıq elmi istiqamət kimi tədqiqat mövzusuna çevrilmişdir. 1996-cı ilə qədər alim və tədqiqatçıların Naxçıvan tarixi barədə mülahizə və təklifləri onuncu əsrdən o tərəfə keçmirdisə, hazırda bu qədim diyarın beş minillik tarixi araşdırılır, qədim şəhər mədəniyyəti öyrənilir. Bu gün Naxçıvanda milli dəyərlərimizə, adət-ənənələrimizə sahiblik vardır. Yüz illər boyu formalaşmış mənəvi irsimiz qorunur, öyrənilir, gənc nəsil milli dəyərlərə sədaqət ruhunda böyüdülür və tərbiyə olunur.

Blokada bir çox məsələlərin həllini zəruri edir. Bunların içərisində ordu quruculuğu və müdafiə potensialının gücləndirilməsi mühüm faktordur. Naxçıvanda güclü ordu formalaşmışdır. Muxtar respublikanın sərhədləri etibarlı qorunur. Sakinlər düşmənə layiqincə cavab verəcək Azərbaycan əsgərinə güvənir, arxayın yaşayırlar. İnanırlar ki, bu gün Naxçıvandakı ordu hissə və bölmələri düşmənə hər an layiqli cavab vermək gücündədir. Reallıq isə ondan ibarətdir ki, nə sərhəd kəndində yaşayan sakinlər, nə də bu kəndlərin möhtəşəm turizm potensialından istifadə etmək üçün ora üz tutan qonaqlar əvvəlki kimi narahat deyillər. Çünki bu gün muxtar respublikanın müdafiə istehkamları olan Soyuq bölgəsində, Sədərəkdə, Havuşda və başıqarlı Şahbuz zirvələrində köksünü düşmən həmləsi qarşısında sipər edən Azərbaycan əsgəri dövlətin, xalqın dəstəyini daim öz üzərində hiss edərək torpaqlarımızın etibarlı keşikçilərinə çevrilmişdir.

Son illər Naxçıvanda əldə olunan ən böyük nailiyyətlərdən biri də vətənpərvərlik anlayışının bir məktəb kimi formalaşmasıdır. Vətənpərvərlik – vəzifəsindən və cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, hər kəsin qanına, ruhuna hopmuşdur. Əslində, bütün sahələrdə müşahidə olunan inkişafın da əsas hərəkətverici qüvvəsi vətənpərvərlikdir. Sözdə yox, əməldə, işdə olan vətənpərvərlik. Bu gün dağda öz sürüsünü otaran çobanın, tarlada alın tərini axıdan əkinçinin, dağların bağrını yararaq yol çəkən mühəndisin, Əlincənin zirvəsində tarixi yenidən yaradan memarın, "Bu gün də döyüş əmrinə hazıram", – deyən 70 yaşlı veteranın, işğalçı Ermənistanla sərhəd kəndində yaşayan və yumruğunu düyünləyərək "Düşməndən qorxmuram! Möhkəm dayanıb kəndimi qoruyacağam", – deyən 7 yaşlı uşağın düşüncə və ürəyindəki Vətən sevgisindən başlayır bu vətənpərvərlik.

Muxtar respublikanın bugünkü inkişafı və tərəqqisi bura gələn qonaqların da diqqətini cəlb edir. Təkcə ötən il muxtar respublikada səfərdə olan jurnalist və tədqiqatçılar Naxçıvan barədə 50-yə yaxın məqalə və kitab yazmışlar. Rusiya Federasiyasında yaşayan tarix elmləri doktoru, yazıçı və jurnalist Rudolf İvanov, türkiyəli tarixçi alim, professor İbrahim Ethem Atnur, Amerika Birləşmiş Ştatlarında yaşayan müstəqil jurnalist və tədqiqatçı Peter Tase, İsrailin Cənubi Qafqaz üzrə tanınmış eksperti Arye Gut, yaponiyalı jurnalist Kazuyasu İşida və onlarla digər xarici nümayəndələr heyranlıqla vəsf etdikləri bu diyarı dünyaya sülhün, sabitliyin, söz və mətbuat azadlığının, dini tolerantlığın, tarixi və mədəni irsə hörmətin, bir sözlə, inkişafın yeni modeli kimi təqdim edir, inkişaf etmiş ölkələrə nümunə göstərirlər. Bütün bunlar Naxçıvanın müasir inkişafı haqqında kənar müşahidəçilərin obyektiv qənaətləridir.

Beləliklə, yaxın keçmişə qayıdıb son 20 ilə nəzər saldıqda hansı çətinliklərdən, hansı mürəkkəb dövrdən bu xoş günlərə gəlib çıxdığımızı görərkən hər birimiz qazanılan uğurlarla qürur duyuruq. Və bir də hər bir naxçıvanlı fəxr edir ki, Naxçıvan artıq ümummilli liderimiz Heydər Əliyevin vaxtilə görmək istədiyi müasir və daim inkişaf edən Naxçıvandır!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bizim çox güclü siyasi iradəmiz var, təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir və niyyətlərimiz artıq real işlərdə özünü göstərir".*** Bu gün ölkəmizdə əldə olunan inkişaf dinamikası uzunmüddətli perspektivə hesablanmışdır. İcrasına başlanılan hər bir layihə, sadəcə, bir gün üçün deyil, yüz illər bundan sonra da Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının inkişafını təmin edəcəkdir.

# Yol düzgün seçiləndə

***Bu gün Naxçıvanın inkişafı haqqında çox deyilir, çox danışılır. İstər vaxtaşırı olaraq mərkəzi mətbuatda, istərsə də, heç uzağa getməyək, məhz ötən il dünyanın müxtəlif mətbu orqanlarında regionun hərtərəfli inkişafı ilə bağlı bu diyara səfər edənlərin təəssüratlarını özündə əks etdirən bir sıra yazılar dərc olunub və yayımlanıb. Bu yazıların yaxından təqibçisi kimi deyə bilərəm ki, təəssüratlarda ən çox buradakı hərtərəfli inkişafa – abadlıq-quruculuq işlərinə, təmizliyə, sabitliyə, qonaqpərvərliyə, tarix və mədəniyyətə verilən qiymət daha çox ifadə olunub.***




İndi bəziləri buna adi hal kimi yanaşıb fikirləşə bilər ki, burada qeyri-adi nə var? İqtisadi durumu bir az yaxşı olan istənilən ölkədə və ya regionda tikinti işləri gedə bilər; dünyada təmizliyinə diqqət edilən şəhərlər də var, tarixinə, mədəniyyətinə böyük məhəbbət bəsləyən və bunu əməldə sübut edən xalqlar və millətlər də. İlk baxışda bununla razılaşmaq mümkündür. Yalnız qeyd etdiyimiz kimi, ilk baxışda. Bu baxış bucağının arealını bir az genişləndirsək, tamam başqa təəssüratın sahibi olacağıq.

Qədim Naxçıvan diyarı Cənubi Qafqazın ən güclü ölkəsi olan Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Bu muxtar dövlətin statusu məlum beynəlxalq sənədlərlə təsdiqlənib və muxtariyyətin yaranmasına əsas səbəb Azərbaycanın əsas ərazilərindən ayrı düşməsi ilə bağlıdır. Dünya xəritəsində 5,5 min kvadratkilometrlik ərazini özündə birləşdirən bu region mühüm geostrateji əhəmiyyətə malikdir. Coğrafi baxımdan üç xarici ölkə ilə həmsərhəd olan muxtar respublikaya hələ ötən əsrin əvvəllərindən istər Rusiya, İngiltərə, Amerika, istərsə də yaxın qonşu ölkələrin maraqları böyük olub. Böyük Türk dünyasını bir-birinə bağlayan, Asiyadan Avropaya uzanan qədim İpək Yolunun üzərində yerləşən Naxçıvanın işğalı imperiya tərkibində olduğu zaman belə, Moskvada daim siyasi masaların əsas müzakirə mövzusu olub. Səbəb isə ondan ibarətdir ki, Naxçıvan böyük imperiyanın şərq sərhədlərindən qərbə doğru uzanan, deməli, eyni zamanda türk dövlətlərini bir-birinə bağlayan böyük zəncirin ən ehtiyat olunan son halqası idi. Region əhalisinin istər ötən əsrin əvvəllərində Naxçıvanın Ermənistan hakimiyyətinə verilməsi təklifinə qarşı sərt müqaviməti, istərsə də imperiyanın çöküşünə, sözün həqiqi mənasında, buradan başlanması Naxçıvanın həssas bir bölgəyə sahib olduğunu göstərirdi. SSRİ kimi nəhəng imperiyanın toxunulmaz sərhədlərinə ilk dəfə Naxçıvanda toxunulması, imperiyanın tərkibindən çıxmaq haqqında bu torpaqda qəbul olunan qərar Naxçıvanı sovetlərin əsl qorxulu kabusuna çevirmişdi. Həmin çətin dövrlərdə ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində Naxçıvanın qorunub saxlanılması, heç bir kömək olmadan yerli əhalinin daxili gücü hesabına düşmənə layiqli cavab verilməsi bu qədim diyarın varlığını davam etdirməsinə imkan verdi. Naxçıvan yaşadı, inkişaf etdi, çox qısa zamanda Azərbaycanın lider regionuna çevrildi. Bəs Naxçıvan buna hansı şəraitdə və hansı təbii şərtlərlə nail ola bildi?

Yenə ən yaxın tarixə baxaq. Hamımıza məlumdur ki, 1993-cü ildə Azərbaycandakı ictimai-siyasi vəziyyətin ən gərgin dövründə xalqımız ümummilli lider Heydər Əliyevi öz rəhbəri görmək istəyirdi. Heydər Əliyevsiz Azərbaycanın məhvə düçar olacağını düşünən xalq kütlələri (bu kütlə içərisində ziyalılar daha çox idi) nə yolla olursa olsun, bu məhvolmanın qarşısını almağa çalışırdı. Ümummilli liderimiz xalqın təkidli tələbindən sonra ölkəmizdə siyasi hakimiyyətə qayıtdı, xilaskarlıq missiyasını həyata keçirdi. Amma geridə 1988-ci ildən düşünülmüş şəkildə blokada vəziyyətinə salınmış, yalnız hava nəqliyyatı ilə Azərbaycanla əlaqə saxlanılması mümkün olan bir məmləkət qalırdı. Yaxın illərdə bu regiona rəhbərlik edəcək şəxsiyyət, sözün əsl mənasında, Naxçıvanı sevən və bu sevgi üçün bütün çətin sədləri yıxacaq bir rəhbər olmalı idi. Çünki bu rəhbərin qarşısında blokada imkansızlığından yeni imkanların yaradılmasınadək, qonşu dövlətlərlə atılmış qarşılıqlı addımların ən yüksək əlaqələrə malikliyinədək, yeni təşəkkül tapmaqda olan hərbi hissələrlə muxtar respublikanın sərhədlərinin mükəmməl qorunmasınadək və adlarını sadalamadığımız bir çox sahələrin dirçəldilməsinədək böyük vəzifələr dururdu. Özü də bu vəzifələr blokada şəraitində öz həllini tapmalı idi. Təbii ki, bütün bunlar ümummilli lider Heydər Əliyevin böyük və uzaqgörən siyasi təfəkkürünün nəticəsində 20 il bundan əvvəl reallaşdı.







Statistik mənbələrə varmadan qeyd etmək istərdik ki, ötən müddət ərzində muxtar respublikada istifadəyə verilən yüzlərlə təhsil və səhiyyə müəssisəsi, inzibati və yaşayış binaları, abadlığı və gözəlliyi ilə bir-birilə yarışa girmiş kənd yaşayış məntəqələri, tikilən və ya yenidən qurulan məscidlər, bərpa və restavrasiya olunan tarixi abidələr, yenidən qurulan müasir yollar və körpülər, salınan minlərlə hektar yaşıllıqlar, yaradılan çoxsaylı istehsal müəssisələri, əhalinin istifadəsinə verilmiş rahat və müasir nəqliyyat, mavi yanacaq, işıq, içməli su və sair bu diyarın sakinlərinin istifadəsi üçün fasiləsiz fəaliyyətdədir. Ən əsası isə odur ki, bu kompleks inkişaf insanların düşüncəsinə də təsirsiz ötüşməyib. Məsələn, bu diyarın insanları təmizliyə hər zaman diqqət edirlər. Çünki insanlar buna adət ediblər. Bu diyarda cinayət hadisələri, demək olar ki, baş vermir. Çünki insanlar buna meyilli deyillər. Bu diyarda insanlar dini və milli dəyərlərə böyük önəm verirlər. Çünki bu dəyərlər qarşısında vəzifəsindən və cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, hamı bərabər hesab olunur. Bu diyara gələn qonaq böyük hörmətlə qəbul olunur. Çünki kimliyindən asılı olmayaraq, istənilən qonağa, hətta rəsmi olsa da, fərdi yanaşma ortaya qoyulur.

İndi isə yazının əvvəlindəki suala qayıdaq. Dünyanın istənilən ölkəsində və ya bölgəsində inkişafa rast gəlmək mümkündür. Ancaq yuxarıda sadaladığımız tərəflər də daxil, inkişaf edən belə bir regiona rast gəlmək çətindir. Ən inkişaf etmiş dünya şəhərlərinin belə, müasir dövrdə terrordan, dini zəmində qarşıdurmadan, ən azından, məhəllə xarakterli cinayət hadisələrindən sığortalanmadığını nəzərə alsaq, Naxçıvandakı inkişafı, üstəgəl blokada şəraitindəki inkişafı möcüzə adlandırmamaq qeyri-mümkündür. Möcüzəni isə "yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda yaratmaq olur..."

**Səbuhi HƏSƏNOV**

# Vətən sevgisi üzərində ucaldılan müasir NAXÇIVAN



***Beş minillik şəhər mədəniyyətinə malik olan ulu Naxçıvan Azərbaycanın, bütövlükdə, Qafqazın və dünyanın sivilizasiya marafonuna bu bölgədə başqa heç bir şəhərə qismət olmayan zəngin tarixi töhfələr verib. Tarixi boyu Naxçıvan bir neçə dəfə inkişafın ən yüksək zirvəsinə çatıb.***

"Əcaib əd-dünya" əsəri soraq verir ki, XII əsrdə – Eldənizlərin hakimiyyəti dövründə Naxçıvan yüksək tərəqqiyə nail olub. Bu qədim əsərdən sonra müasir mənbədən – "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamından oxuyuruq: *"XII əsrdə qüdrətli Azərbaycan Atabəylər dövlətinin paytaxtı olan Naxçıvan əzəmətli bir şəhər, ölkəmizin siyasi, iqtisadi, mədəniyyət və sənətkarlıq mərkəzlərindən idi".*

Naxçıvan Azərbaycan Atabəylər dövlətinin paytaxtı olarkən tarixinin qızıl dövrünü yaşayıb.

Ulu Naxçıvan diyarı öz tarixinin ikinci qızıl dövrünə ötən əsrin 70-80-ci illərində qovuşub. Ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ildə ölkəmizə rəhbər seçilməsindən sonra Azərbaycan, eləcə də Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyub. Ötən əsrin 70-ci illərində bütöv inkişaf yoluna çıxan, 1990-cı ilin 22 iyulunda ulu öndər Heydər Əliyevin doğma yurduna qayıdışı ilə işğaldan xilas olunan, 1990-1993-cü illərdə Azərbaycanın dövlətçilik laboratoriyası funksiyasını yerinə yetirən, müstəqil dövlət quruculuğunun ilk addımları atılan, 1995-ci ildən sonra böyük tərəqqi, tikinti-quruculuq meydanına çevrilən Naxçıvan son 20 ildə tarixdə analoqu olmayan misilsiz uğurlar qazanıb. Bu illər Naxçıvanın tarixinin üçüncü qızıl dövrüdür.

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji hədəflər, inkişaf və tərəqqi proqramı uğurla həyata keçirilib, muxtar respublika ulu öndərimizin arzuladığı, görmək istədiyi kimi qurulub. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ardıcıl diqqət və qayğısı ilə Naxçıvan Muxtar Respublikası yeni hədəflərə doğru irəliləməkdə, Naxçıvanın daha parlaq gələcəyi üçün mühüm layihələr həyata keçirilməkdədir.

Hələ 1995-ci ildə qarşıya qoyulmuş məqsəd, müəyyənləşdirilmiş strateji hədəflər blokada şəraitində belə, intibaha nail olmağın mümkünlüyünü ortaya qoydu. Muxtar respublika əhalisinin inamının özünə qaytarılması, Naxçıvanın daxili potensialının hərəkətə gətirilməsi, cəmiyyətin bütün təbəqələrinin qədim diyarımızın inkişafı üçün həyata keçirilən tədbirlərə cəlb olunması, elmin, təhsilin, səhiyyənin və mədəniyyətin inkişafına yüksək qayğı göstərilməsi, yerli xammala əsaslanan istehsal müəssisələrinin yaradılması, bütün sahələrin tərəqqisi məqsədilə ixtisaslı kadrların yetişdirilməsi, ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsi, genişmiqyaslı quruculuq işlərinin aparılması, yurdumuzun sabit və təhlükəsiz bir regiona çevrilməsi, insanların rifah halının yaxşılaşdırılması intibaha gedən yolda qarşıya qoyulan əsas məqsədlərdən idi.

Tarix üçün çox qısa bir zamanda – cəmi 20 ildə bütün bunlara nail olundu, ictimai fikirdə "Naxçıvan möcüzəsi" adlandırılan inkişafın Naxçıvan modeli yaradıldı. Ötən



əsrin 90-cı illərində elektrik enerjisi sarıdan ciddi korluq çəkən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı səmərəli tədbirlər bəhrəsini verdi: Naxçıvan elektrik enerjisi idxal edən bölgədən enerji ixrac edən regiona çevrildi.

Muxtar respublikanın əkinəyararlı torpaqlarının əkin dövriyyəsinə daxil edilməsi nəticəsində keyfiyyətli yerli məhsullar yetişdirilir, xarici bazarlardan ərzaq asılılığına son qoyulur, əhalinin məşğulluq səviyyəsi yüksəldilir. Beləliklə, Naxçıvanın enerji və ərzaq təhlükəsizliyi tam təmin olunur.

İnfrastrukturu çağdaş dünya standartları səviyyəsində bütünlüklə yeniləşdirilən, bir vaxtlar daimi başağrısı olan işıq, qaz, su və digər kommunal problemləri tamamilə aradan qaldırılan Naxçıvan inkişafın yeni mərhələsindədir. Həqiqət budur ki, tarixin heç bir dönəmində belə geniş, rahat yolları, hər gün, hər ay, hər il sayı artan müasir binaları, memarlıq inciləri, belə yamyaşıl, könül körpüsü küçələri, qızılgüllər gülüstanına dönən bağları, parkları, seyrəngahları olmayıb Naxçıvanın. Tarixin heç bir dövründə belə müasir məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları görməyib Naxçıvan. Tarixin heç bir dövründə ümumi tutumu 38 min ton olan taxıl anbarları, xüsusi mühafizə olunan təbiət əraziləri, ümumi tutumu 400 milyon kubmetrə çatan sututarları, ixracyönümlü keyfiyyətli məhsullar istehsal edən nəhəng sənaye müəssisələri, 15 min hektardan çox yaşıllıq sahələri olmayıb Naxçıvanın. Bəli, Naxçıvan tarixinin heç bir dövründə öz tələbatını yerli istehsal hesabına ödəyə bilməyib, sərhədləri etibarlı qoruyan belə güclü orduya, güclü iqtisadiyyata sahib olmayıb. Həqiqət budur ki, Naxçıvan tarixin heç bir dönəmində belə güclü olmayıb.

Son 20 ildə Ümumi Daxili Məhsul istehsalını 2 milyard 340 milyon manata çatdıran, 300-dən çox təhsil, 240-a yaxın səhiyyə, 350-dən çox mədəniyyət müəssisəsi üçün binalar, 41 idman obyekti, 162 körpü, 6350-dən çox istehsal, xidmət və digər infrastruktur obyektləri, 510 inzibati bina inşa olunaraq, yaxud yenidən qurularaq istifadəyə verilən, 6 yeni elektrik stansiyası yaradılan, 109 kənd mərkəzi, 3 qəsəbə, 1 şəhər mərkəzi tikilən və ya yenidən qurulan, yaşayış məntəqələrinin 93 faizində genişzolaqlı, 83 faizində simsiz internet xidməti göstərilən, 352 növdə məhsul istehsal edilən, şəhər və kəndləri sürətlə yeniləşən, beynəlxalq tədbirlər və idman yarışları keçirilən, ildə 350-400 min turisti qəbul edən, beşulduzlu otellər fəaliyyət göstərən, ixrac imkanları artan, əhalisinin bütün sosial ehtiyacları ödənən, bir sözlə, blokada şəraitində intibah yaradan müasir Naxçıvan daha möhtəşəm uğurlara – yeni nəhəng iqtisadi komplekslər, sənaye müəssisələri, su elektrik stansiyaları, Günəş və külək elektrik stansiyaları yaratmaq istiqamətində daha sanballı tarixi qələbələrə doğru addımlayır. Bu, beş min il əvvəl şəhər mədəniyyətini yaradan ulu bir diyarın böyük tarix yaradan və tarixə hökm edən zəfər yoludur.

Naxçıvan Muxtar Respublikası-



nın sürətli sosial-iqtisadi inkişafı qədim diyarımızın qonaqlarını da hədsiz dərəcədə heyrətləndirir. Amerikalı jurnalist-tədqiqatçı Peter Tase Naxçıvan barədə təəssüratlarını qələmə aldığı məqalələrindən birində yazır: *"Qədim tarixə malik olan bu diyarın inkişafını sözlə təsəvvür etmək mümkün deyil. Bu gün Naxçıvan blokadada olmasına baxmayaraq, dinamik inkişaf edir. Belə davam etsə, Naxçıvan şəhəri öz müasir memarlığı ilə Qafqazın meqapolisinə çevriləcək".* Turist və səyahətçilər üçün bələdçi kitabı yazarı, İngiltərə vətəndaşı Mark Eliyot yazır ki, *"Naxçıvanın yolları və tarixi abidələri tam gözəlləşdirilib. Adama elə gəlir ki, real dünyada yox, illüstrasiyada gəzirsən. Naxçıvan çox cazibədar məkandır".* Rusiyalı jurnalist Nadana Fridrixsonun Naxçıvan haqqında təəssüratları isə belədir: *"Naxçıvan daha çox tanıdıqca biz başa düşdük ki, buradakı real mənzərələrin Rusiyadakı təsəvvürlərlə oxşarlığı yoxdu. "Qoparılmış region" çiçəklənən və memarlıq cəhətdən cazibədar bir yerdir. Naxçıvanın küçələri heyrətamiz dərəcədə təmizdir. Yeni evlər vardır. Onlar boz-bulanıq doqquzmərtəbəli kibrit qutuları kimi deyil, yaşamağın ləzzətini bilənlərin gözünü oxşayan dərəcədə müasirdirlər".*

Xarici qonaqların Naxçıvan haqqında belə təəssüratlarının sayını kifayət qədər artıra bilərik. Bu, onu göstərir ki, müasir Naxçıvan bütün yönləri ilə hər kəsi özünə valeh edir.

Amma bütün bunlar son 20 ilin Naxçıvana qazandırdıqlarının yalnız görünən tərəfidir. Vətən sevgisi üzərində ucaldılan müasir Naxçıvanın işıqlı gələcəyi naminə elə möhtəşəm tədbirlər həyata keçirilir ki, bu gün biz onların mahiyyətini tam dərk edə bilmirik.

Naxçıvanın mənəvi qazancları maddi qazanclarından heç də az deyil. Muxtar respublikada bütün sahələrdə quruculuq işləri aparılıb. Buna paralel olaraq həm də yeni cəmiyyət qurulub. İnsanların şüurunda inqilabi dəyişiklik edilib, müasir düşüncəli, vətənpərvər gənclik yetişdirilib. Həyata keçirilən həssas tədbirlər sayəsində insanlarda sahiblik hissi formalaşdırılıb. İndi tikilənlərə, qurulanlara keçmiş Sovetlər Birliyində olduğu kimi ögey, dağıdıcı münasibət yoxdur. Hər bir naxçıvanlı tikilən, qurulan hər bir binaya, salınan parka, yola, müasirləşdirilən küçəyə, yaşadığı binaya öz malı, milli sərvəti kimi baxır. Hər kəs bilir ki, dövlətin yaratdıqları insanların rahatlığı üçündür. Və bu gün yaradılanları gələcək nəsillərə çatdırmaq kimi bir məsuliyyətimiz var.

İnsanların mənəvi zənginləşdirilməsində milli dəyərlərimizə göstərilən qayğı, milli mentalitetimizin təbliği yolu ilə nail olunub. Tariximizin öyrənilməsi və öyrədilməsi istiqamətində görülən işlər də bu məsələdə mühüm rol oynayıb. Tarixən bu yurdun sakinləri öz dədə-baba torpaqlarına sahib çıxıb, onu qoruyub, möhkəmləndiriblər. Deməli, insanlarda sahiblik hissinin



gücləndirilməsi üçün tarixə qayıtmaq, milli dəyərləri yaşatmaq lazım idi. Əslində, bu prosesin əsası ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə qoyulmuşdu. Ümummilli liderimizin diqqət və qayğısı ilə müstəqillik illərində bu iş daha da sürətləndirildi. Heydər Əliyev siyasətinin uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikası bu sahədə də öncüllüyünü qoruyub saxlamaqdadır.

Son 20 ilin ən böyük uğurlarından biri də odur ki, savadlı, dünyagörüşlü, vətənpərvər nəsil yetişdirilir. Muxtar respublikanın şəhər və rayon mərkəzlərində, kəndlərində inşa olunan müasir məktəb binalarında oxuyan şagirdlər, dünya standartlarına cavab verən ali təhsil ocaqlarında təhsil alan tələbələr çağdaş dünyamızın ən son nailiyyətləri hesab edilən texnologiyalardan bəhrələnməklə yanaşı, öz milli dəyərlərini öyrənir və milli ruhda böyüyürlər. Artıq muxtar respublikada ənənəyə çevrilən muzeylərə ekskursiyalar, belə mədəniyyət müəssisələrində açıq dərslərin keçilməsi bir məqsəd xidmət edir: yetişən nəsil tarixini, mədəniyyətini, ədəbiyyatını dərindən öyrənsin, tarixi şəxsiyyətlərini tanısın, onların Vətənə xidmət nümunəsi ilə böyüsün, milli dəyərlərinə sahib çıxıb yaşatsın.

Bir vaxtlar öz əzəmətli keçmişini yalnız tarixi abidələri ilə xatırladan Naxçıvan bu gün çoxlarının böyük təəccüb hissi ilə qarşıladığı bir diyara çevrilib. Hər bir yaşayış məntəqəsinin, hər bir binasının zərif görünüşü ilə könülləri ovsunlayan qədim diyarımız tarixini qorumaqla bərabər, müasirliyi ilə də diqqəti cəlb edir. Muxtar respublikamız bütün sahələrdə irəliləyişlərə nail olaraq günü-gündən dəyişir, daha da müasirləşir. Tarixi və mədəni abidələrin bərpası, müasir dövrün yeni abidələrinin inşası, bir sözlə, Naxçıvanın özünü yenidən "Nəqşi-cahan" olaraq tanıtması hər birimiz üçün böyük fəxrdir.

Muxtar respublikanın yenidən qurulan yolları ilə irəlilədikcə hər addımda təzə bir binaya, əzəmətli bir mənzərəyə rast gəlirsən. Məşhur Naxçıvan memarlıq məktəbinin milli ənənələri ilə müasir şəhərsalma mədəniyyətinin uzlaşdırıldığı muxtar respublikada genişmiqyaslı tikinti-quruculuq işləri sürətlə davam etdirilir.

Naxçıvan elə sürətlə dəyişir ki, bəzən muxtar respublika sakinləri özləri də dünən keçdiyi küçəni bu gün tanıya bilmirlər. 20 il bundan öncə möcüzə kimi görünən ən ucqar sərhəd kəndində belə, şölələnən mavi yanacaq, 24 saat elektrik enerjisi təminatı indi adi həyat reallığına çevrilib.

Bu gün naxçıvanlılar ümumən regionda çox az-az təsadüf edilən lüks evlər tikir, ən bahalı avtomobilləri alıb muxtar respublikaya gətirirlər. Naxçıvanda uşaqdan-böyüyə hər kəsin geyim-kecimi də qabaqcıl Avropa ölkələrindən geri qalmır.

Bircə fakta diqqət çəkək. Bu gün Naxçıvan şəhərindəki mebel salonlarında, elektrik avadanlıqları satılan mağazalarda alınmayan ucuz əşyalardır. Ona görə də sahibkarlar daha müasir əşyalar gətirməyə və istehsal etməyə meyil göstərirlər.

Bəli, naxçıvanlıların yaşayış tərzi belədir. İnsanların maddi rifah halının yaxşılaşdırıldığını göstərən belə nümunələrin siyahısını istənilən qədər artıra bilərik.

***Bu gün bütün naxçıvanlıların ümumi fikri belədir. Biz***

*Vətən sevgisi üzərində ucaldılan;*
*Arzularımızın çin olduğu;*
*Sabit;*
*İnkişaf və tərəqqinin davamlı xarakter daşıdığı;*
*Fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olunan;*
*Təhlükəsizliyimizin tam təmin edildiyi;*
*Abadlıq və quruculuq işlərinin hər gün daha da genişləndirildiyi;*
*Ləyaqətli, vətənpərvər gəncliyin yetişdirildiyi;*
*İradənin, cəsarətin bütün çətinliklərə qalib gəldiyi;*
*Beynəlxalq tədbirlərin keçirildiyi;*
*Ordusunun nəinki onu qorumaq, istənilən hücum əməliyyatını həyata keçirməyə qadir olan;*
*Varlı bir regionda yaşayır və müasir Naxçıvanın* ***QURUCUSUNA*** *sonsuz minnətdarlığımızı bildiririk.*

Bəli, beş minillik şəhər mədəniyyətinə malik Naxçıvanın tarixində, çətin ki, son 20 il qədər heyrətamiz, şücaətli bir dövr olsun.

Bəs bu yüksəlişə necə nail olunub? Blokada şəraitində yaradılan intibahın səbəblərini Azərbaycan Prezidenti cənab İlham Əliyev belə izah edir: ***"Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar".***

**Tural SƏFƏROV**



# Gündüzləri sübh şəfəqli, gecələri nur çələngli Naxçıvanım

Bu dünyada hər insanın sürəcəyi bir ömür var,
Ömür var ki, qısa yoldu, ömür var ki, tarix yazar.

Tarix yazan ömürlərin imzasından yola çıxdım,
Bir insanı duymaq üçün bürc dolaşdım, qala çıxdım.

Hər gördüyüm mənzərədən Vətən eşqi boylanırdı,
Qara günlər inam adlı ağ rənglərə boyanırdı.

İnam varsa, Fərhad kimi qayaları çapmaq olar,
İnkişafa, yüksəlişə gedən yolu tapmaq olar.

İnam varsa, çətin anda bilirsən ki, neyləyərsən,
Zülmətləri əməlinlə işığa qərq eyləyərsən.

Bu gün mənim doğma yurdum, Nəqşi-cahan Naxçıvanım
Həm dünənim, həm sabahım – ilk beşiyim, son ünvanım...

Tarixinin ən qüdrətli zamanını yaşamaqda,
Hər keçən gün sabahıma nəğmə qoşur bu gün haqda.

Hər nəğmənin sədasından qabarlanır ürəyimiz,
Daha böyük uğurlarçün qanadlanır istəyimiz.

Mənim tarix dərslərimin saxlanc yeri qədim şəhər,
Gün keçdikcə yeniləşər, gün ötdükcə qədimləşər.

O, qədim bir qocadır ki, beş min ildir, yollar döyür,
Hələ bir gəldiyim qədər gedəcəyim yol var deyir.

Qədim-qayım Nuh yaşıdım, Şərqə qapı açan diyar,
Bu gün sənin övladların həm xoşbəxtdir, həm bəxtiyar.

Çünki bu gün kimə sorsan, çünki bu gün hara baxsan,
Gül-çiçəyə bürünübsən, ətirli bir gülüstansan.

Şəhərimdən kəndiməcən seyr eləsən hər bir yeri,
Görəcəksən hər qarışda əl qabarı, zəhmət təri.

Amma burda bir haşiyə çıxacağam, bilsin hamı,
Zəhmət ilə yoğrulubdur bu torpağın hər adamı.

İyirmi il bundan əvvəl bu şövq ilə kim yazardı?
Naxçıvanın bu gününü bax bu cürə kim yozardı?

İyirmi il bundan əvvəl kim deyərdi, gün gələcək,
Şərqin qoca qapısına Gün doğacaq, Gün gələcək.

Heç nə birdən-birə olmur, həyat sirli-soraqlıdır,
Həyat – ona məna qata bilsən əgər, maraqlıdır.

Öz ömrünə məna qatan yurdu da mənalandırar,
Canından can əskik etməz, can verərək canlandırar.

Yurduna can verənlərin Tanrı yazar savabını,
Kim ki açıb oxuyubsa "Qayıdış"ın kitabını

Bilər, əlbət, Vətən üçün can yandırmaq hardan gəlir,
Varın verən utanmaz ki, bu istək o vardan gəlir.

Bu dünyada kim eşitsə anaların alqışını,
Ataların öyüdünü, övladların çağrışını

O da gərək öz ömrünü el yolunda çıraq edə,
Vətənin hər dərd-sərini öz çiynində qalaq edə.

Nə qorxuya bir göz qırpa, nə diksinə sel səsindən,
Gücünə güc qata daim yurd eşqindən, el səsindən.

Bu gücdür ki, iyirmi ildir, hey çalışır Vətən üçün,
Naxçıvanın hər yerindən görünəcək baxsan bu gün:

Şahbuzundan Babəkəcən, Sədərəkdən Ordubada,
Kəngərlidən Culfayacan, hər kəndində, hər obada

Gündüzlərin sübh şəfəqi, gecələrin nur çələngi
Kəndlərinin torpaq ətri, şəhərlərin öz ahəngi

Alıb səni ağuşuna xoşbəxtliyə aparacaq,
Dərdin-qəmin varsa əgər, yaddaşından qoparacaq.

Görəcəksən, Naxçıvanın kəndləri də şəhərləşib,
Deyəcəksən, nağıllardan güc alaraq sehrləşib.

Bir vaxt kələ-kötür yollar nə vaxt belə şüşələndi,
Dağ başında məktəblərin Günəş gəzən şüşəbəndi.

İyirmi il əvvəl üçün nağıl idi bütün bunlar,
Amma indi göz oxşayır tikilənlər, qurulanlar.

Hər sahədə tərəqqinin sevincini yaşayırıq,
Gələn günün uğurları ötən gündən daha artıq.

İyirmi il bundan əvvəl həsrət idik gör nələrə,
Yenilikdən bixəbərdik, sığınmışdıq köhnələrə.

Bu gün isə yeniliklər hər gün döyür qapımızı,
Dayanmadan yeniliyə hey səsləyir hamımızı.

Düşündükcə bütün bunlar inkişafın nəticəsi,
Qazanılan uğurların unudulmaz təntənəsi.

İndi mənim dağ qürurum sığan deyil yerə-göyə,
Sözlərimin qüdrətiylə bu işləri öyə-öyə.

Alqış deyib dastan qoşam bu işlərə qol çəkənə,
Məktəb tikib, körpü salıb, ağac əkib, yol çəkənə.

Hər əməl bir nümunədi, atalar da yaxşı deyib,
Bilməmək heç eyib deyil, öyrənməməkdir əsl eyib.

İndi mənim müasirim, gənc dostum, tələbə dostum,
Hər sahədə qazanmalı uğur və qələbə dostum,

Bütün mənfi cəhətlərdən uzaq olaq, tərk eləyək,
Bizim üçün yaradılan şəraiti dərk eləyək.

Müasir gənclər olaraq yumruq kimi birləşərək,
Qəlbimizdə, dilimizdə bircə şüar olsun gərək:

Azərbaycan anamızdır, onu daim sevəcəyik,
Lazım gəlsə, Vətən üçün canımızdan keçəcəyik.

Bunu bizə təlqin edir öyrədilən vətən dərsi,
Ruhumuza qida verən azərbaycanlılıq hissi.

İyirmi illik inkişafın intibahı göz önündə,
Yazmaq üçün aciz qalır qələm, vərəq söz önündə.

Görmək üçün, duymaq üçün gərək hər gün, gərək hər an,
Hər tərəfi hərtərəfli addım-addım dolaşasan.

Anasından ayrı düşən şüşədə can Naxçıvanım,
Yavru Vətən, qədim torpaq, Azərbaycan Naxçıvanım...

Xəritədə öz evinin "eşiyində" dayanıbdır,
Amma hər an öz-özünün keşiyində dayanıbdır.

Yeri gəlsə əsgərdi O, yeri gəlsə generaldı,
Blokada əzabından inkişafla qisas aldı.

Düşündükcə iyirmi il bundan əvvəl olanları,
Blokada əjdahası əlimizdə qalanları

Dağıdırdı, məhv edirdi, tükənirdi ümidimiz,
Anarxiya girdabında yox olurduq hər birimiz.

Amma əzm, iradəylə, hər bir dərdi yenə bildik,
Milli ruhla cuşa gəlib səsimizlə dinə bildik.

Yollar tapıb addımladıq, dayanmadıq gecə-gündüz,
Ona görə gül-çiçəklə ətirlənib bu günümüz.

Sözlərimlə şeirləşən uğurlarda bir imza var,
Amma yenə bizi gözlər atılacaq çox imzalar.

Dünya ilə müqayisə edildikcə Naxçıvanım,
Qürurlanır hər insanım – budur mənim şöhrət-şanım.

Unutdurdu iyirmi il əvvəli və bu gün isə,
Naxçıvanın əhalisi bir ad verdi həmin şəxsə –

Ulu öndər məktəbinin ən layiqli müdavimi,
O da sevdi Naxçıvanı ümummilli lider kimi.

Elxan YURDOĞLU



ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 26